BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2007*

# TARİX

## MÜSTƏQİL AZƏRBAYCANDA NEFT AMİLİ VƏ İQTİSADİ İNKİŞAF

**İ.X.ZEYNALOV**
*Bakı Dövlət Universiteti*

XX yüzilliyin ilk qərinəsindən başlayaraq hazırkı zamanadək, Azərbaycan nefti öz strateji əhəmiyyətini saxlamaqdadır. Bunu, Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin sentyabrında əsasını qoyduğu və sonrakı illərdə uğurla həyata keçirildiyi neft strategiyası sübut edir.

70-ci illərdə və 80-ci illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi və qayğısı əsasında Azərbaycanda neft sənayesi öz inkişafında yeni mərhələyə daxil oldu, neft sənayesinin müasir texnologiya əsasında inkişafını sürətləndirmək məqsədilə çox əhəmiyyətli tədbirlər həyata keçirildi. Geoloji-kəşfiyyat işləri gücləndirildi, maddi-texniki baza möhkəmləndirildi, Xəzər dənizində qazma işləri yeni üsullarla genişləndirildi. Görülən tədbirlər nəticəsində qərb texnologiyası əsasında «Xəzər», «Xəzərdənizneft» və «Şelf» seriyalı üzən qazma qurğuları tikilib istifadəyə verilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Həmçinin, bu texniki imkanların sayəsində Xəzər dənizində «28 Aprel», «Bahar», «Çıraq», «Azəri», «Günəşli», «Şahdəniz» və digər yataqların sənaye imkanları aşkarlanmış və istismara verilmişdi. Nəticədə neft sənayesindən gələn gəlir respublikanın iqtisadiyyatının inkişafında oynadığı əhəmiyyətli rol Azərbaycanın daxili və xarici siyasətinin, beynəlxalq nüfuzunun təsirli amillərindən birinə, mühüm geosiyasi və geostrateji faktora çevrilmişdir.

80-ci illərin sonlarına yaxın keçmiş SSRİ-də gedən ictimai-siyasi proseslər Azərbaycanda da iqtisadiyyatın bütün sahələrinə, o cümlədən neft sənayesinə də öz mənfi təsirini göstərmişdir.

Neft hasilatı 1987-ci ildəki 13,8 milyon tondan 1993-cü ildə 10,3 milyon tona enmişdir.

Yalnız Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi ilə neft sənayesinə yeni qayğı və diqqət başladı.

H.Əliyev Azərbaycanda müstəqil dövlət quruculuğunda, ölkə iqtisadiyyatının milli ruhda yenidən qurulmasında, Azərbaycanın bu gününün, sabahının və gələcəyinin qoruyucusu olan neftin rolunu yüksək qiymətləndirərək bu sahənin müasir tələblərə, dünya standartlarına uyğun yenidən qurulmasını önə çəkdi.

Qısa bir zamanda görülən tədbirlər nəticəsində respublika üzrə neft hasilatı artmağa başladı. Belə ki, əgər 1997-ci ildə 9 milyon ton

neft hasil edilirdisə, 1998-ci ildə bu rəqəm 11,4 milyon ton, 1999-cu ildə 13,8 milyon ton, 2000-ci ildə 14,5 milyon tona çatdı.

Geniş iqtisadi islahat keçirmək üçün yeni iqtisadi reallıqları əks etdirən 30-dan çox, o cümlədən özəlləşdirmə haqqında qanun, torpaq haqqında kodeks qəbul olunmuşdu. Dövlət torpaq, əmlak komitələri yaradılmışdı. Lakin qəbul olunmuş mühüm iqtisadi qanunlar hələ işləyə bilmirdi, çünki onların fəaliyyətini təmin edəcək normativ aktlar yox idi.

İqtisadiyyatın idarəetmə sistemi də pozulmuşdu. Köhnə inzibati-amirlik aparatı, demək olar ki, dağılmış, yenisi isə hələ yaradılmamışdı. Bazar münasibətləri üçün vacib olan özəlləşdirmə, çoxukladlı təsərrüfatçılığa keçid ləng gedirdi.

Respublikada «nomenklatura sahibkarlığı» yaranmışdı: işgüzar fəaliyyətlə əsasən əvvəlki illərdə əyri yollarla vəsait toplamış şəxslər, habelə yeni bəylər – imkanlı dövlət məmurları, təsərrüfat rəhbərləri, onların himayə etdiyi işbazlar məşğul olurdular. Müştərək və kiçik müəssisələrin çoxu xaricə satdığı malın əvəzinə alınan valyutanı respublikaya qaytarmır, xarici banklardakı şəxsi hesablarında saxlayırdılar. Bütün bunların nəticəsi idi ki, iqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi.

Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitlik yaratdı və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Prezidentin 10 may 1994-cü il fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı.

1995-ci ilin fevralında prezident ilk radikal addım atıb valyuta bazarı təşkili haqqında fərman verdi, valyuta ehtiyatları bazar vasitəsi ilə tənzimlənməyə başlandı. Büdcə kəsirinə ciddi nəzarət edildi, onun artmasına yol verilmədi. Nəticədə büdcə kəsiri 10 faizə endi.

1996-cı ilin ortalarında prezident daha yeni bir ciddi iqtisadi addım atdı – vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. 1997-ci ildən dövlət büdcəsi xərclərini səmərəli təşkil etmək üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı.

Lakin respublikanın istehsalı inkişaf etdirmək üçün lazımi investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədi ilə «açıq qapı» siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq genişləndi. Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, başqa iqtisadi tədbirlərin həyata keçirilməsinə kömək etdi.

Azərbaycan Respublikası iqtisadiyyatının inkişafında neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması çox mühüm əhəmiyyətə malik idi.

Azərbaycan neft sənayesində yeni era başlandı. 1994-cü il sentyabrın 20-də Bakının «Gülüstan» sarayında «Əsrin müqaviləsi» - Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və sonradan onlara qoşulan Yaponiyanın iri neft şirkətləri daxil olan konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq», «Günəşli» neft yatağının

dərin hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Razılığa görə investisiyanın 80 faizini konsersium qoyur, Azərbaycanın ümumi gəliri çıxarılacaq neft qiymətinin 80 faizi miqdarında müəyyən olunurdu. Bundan əlavə hasil olunacaq səmt qazı da tam Azərbaycanın ixtiyarına verilirdi.

1997-ci ilin oktyabrında «Şimal», 1999-cu ilin aprelində isə «Qərb» kəməri istifadəyə verildi. İldə 50 milyon ton neft nəql edə biləcək Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsi haqqında saziş bağlandı.

Dünyanın ən qabaqcıl neft şirkətləri Azərbaycanın neft, neft-maşınqayırma sənayesinə müasir texnologiyalar gətirdilər. Neft donanması, infrastruktur yenidən quruldu. «Bakı» elmi-tədqiqat geofizika gəmisi modernləşdirilib dünyanın ən mükəmməl geofizika gəmilərindən birinə çevrildi. «Xəzərdənizneft» yarımdalma qazma qurğusu yenidən bərpa edildi, «Dədə Qorqud» adı ilə ikinci həyata başladı. «Şelf-5» qazma qurğusu əsaslı şəkildə yenidən qurulmağa, müasir avadanlıqla təchiz olunmağa başlandı. 2000-ci ildə müasir çoxfunksiyalı, özüqalxan «Qurtuluş» qazma qurğusu istifadəyə verildi. «Tofiq İsmayılov» adına dalcıq, «Azərbaycan», «İsrafil Hüseynov» adına kran gəmiləri təmir edilib yeni avadanlıqlarla təchiz olundu. «Çıraq-1» platforması beynəlxalq standartlara uyğun, qərb texnologiyası əsasında yenidən quruldu. Bu platformadan sahilədək 120 metr dərinlikdə 176 km-lik neft, Neft Daşlarına 48 km-lik qaz kəmərləri çəkildi. Zığ zavodu sualtı boru istehsalı üzrə modernləşdirildi.

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də «Əsrin müqaviləsi» üzrə ilkin neftin hasilatına başlanıldı və bu andan başlayaraq, 2000-ci ilin sonunadək 12,2 mln. ton xam neft və 1,8 mlrd. kubmetr qaz hasil edilmişdir.

2000-ci ildə Azərbaycanda hasil edilən neftin ümumi həcmi 14 mln. ton təşkil etmişdir. 1990-cı ilin səviyyəsindən 12 faiz və 1995-ci ilin səviyyəsindən 1,5 dəfə çox olmuşdur.

İqtisadiyyatın başqa sahələrinə də xarici sərmayə qoyuluşu sürətlə artırdı. Xarici investisiyanın 1996-cı ildə 33, 2000-ci ildə isə artıq 50 faizdən çoxu qeyri-neft sahələrinə yönəldilmişdi. Ümumiyyətlə, respublikanın iqtisadiyyatına 1993-cü ildə 15 milyon, 1996-2000-ci illərdə isə 5 milyard dollar xarici investisiya qoyulmuş, onun 90 faizi istehsal sahələrinin inkişafına istiqamətləndirilmişdir.

1996-cı ilin avqustunda prezident sahibkarların nümayəndələri ilə görüşdü. Kiçik və orta sahibkarlığa kömək məqsədi ilə Dövlət proqramı hazırlandı. Müəssisələrin dövlət qeydiyyatı işi sadələşdirildi, zonalar üzrə qeydiyyat mərkəzləri təşkil edildi.

Xarici investorların Azərbaycana marağı durmadan artırdı. 1997-cı ildə Sumqayıtda «Azərboru» İstehsalat Birliyinin müəssisəsində hər biri on tonluq 5 yeni elektrik sobası işə salınmışdı. Avropada ən böyük – 150 tonluq Marten sobası yenidən işə salındı. 2000-ci ildə respublikada 1300-dən çox xarici şirkət fəaliyyət göstərirdi. Respublikada sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar da yaxından köməklik göstərirdilər.

İngiltərənin «Kayzer» firması ilə Sumqayıt Əlvan Metal İstehsalat Birliyinin müqaviləsi əsasında Aliminium zavodu yenidən işə başladı.

İtaliyanın «Porçeti SPA» firması ilə kontraktlara əsasən natrium qələvisi, polimer istehsal edən müasir qurğular işə salındı. Səudiyyə Ərəbistanı firması ilə aşağıtəzyiqli polietilen, polivinilxlorid istehsalı qurğularının tikilməsi, «Polimer-120» qurğusunun, Yaponiya firmaları ilə Etilen-propilen zavodunda «EP-300» qurğusunun yenidən qurulması və başqa müqavilələr bağlandı. İtaliya firması ilə müqaviləyə əsasən Qaradağda yeni Şin zavodu tikilməyə başlandı. Suraxanı maşınqayırma zavodunda ABŞ-ın «Haylənd» firması ilə müştərək müəssisə yaradıldı və dünya standartları səviyyəsində nasoslar istehsal edildi. Bakı maşınqayırma zavodunda ABŞ-ın «Red-Tul» firması ilə yaradılmış müştərək müəssisədə müasir texnologiyalara cavab verən qazma baltaları, Avstriya firması ilə birgə qazma qıfılları istehsal olunurdu. Bakı poladtökmə zavodu Türkiyə ilə müştərək yaradıb tikinti üçün armatur istehsalına başlamışdı.

İngiltərənin «Trans Uvold Metal LTD» şirkəti Gəncə Gil Torpaq İstehsalat Birliyini icarəyə götürmüş, bərpa-quruculuq işləri aparmış, Gəncə zavodu, Daşkəsən alunit emalı müəssisəsi işə salınmış, zəy, sulfat turşusu istehsalına başlanmışdı.

Xarici investisiya təsərrüfatın başqa sahələrinə də nüfuz edirdi. Bakı tütün kombinatı məşhur «Reynold Tobakko» (ABŞ) və «Star» (Türkiyə) firmaları ilə birgə müəssisə yaradıb istehsalatı modernləşdirmişdi. Çay, meyvə-tərəvəz istehsalı üzrə da xarici kapitalın geniş cəlb olunduğu müştərək müəssisələr təşkil olunmuşdu. Türkiyənin «Rolsan» şirkəti Azərbaycanda «Saro LTD» firması təşkil edərək Şri-Lankadan çay gətirib qablaşdırırdı. Bu ölkənin «İntersun» şirkətlər qrupu Bakı çayçəkici fabriki ilə müştərək «Azərsun» müəssisəsi yaratmışdı. Fabrikin sexi əsaslı şəkildə yenidən qurulmuş, müasir texnologiyalar əsasında «Məryəm», «Final», «Azər», «Mərcan» markalı çaylar istehsal edilməyə başlanmışdı. Türkiyənin «Pet Holdinq» şirkəti 2 dəri fabriki, emal müəssisələri təşkil etmişdi.

İnvestisiya qoyuluşunun artması iqtisadi struktur dəyişikliklərinin dərinləşməsinə, sahibkarlığın inkişafına imkanlar açırdı. Hər il orta hesabla 7-8 min özəl müəssisə yaranırdı.

Respublikada kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi, demək olar ki, 1997-ci ilin martında artıq başa çatdırılmış, 10174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən əmək kollektivi üzvlərinə verilmişdi. Böyük müəssisələrin özəlləşdirilməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçirilirdi. İri və orta sənaye müəssisələri səhmləri artıq 1997-ci ilin martından əhaliyə paylanmağa başlanmış ümumi mülkiyyət bölgüsündən hər kəsə düşən payın ifadəsi olan çeklərə dəyişdirilirdi. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün Respublika Hərrac Mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək dividentləri bölüşdürmək üçün Çek İnvestisiya Fondları yaranırdı.

1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. Dövlət konsernləri və şirkətləri səhmdar cəmiyyətlərinə çevrilməyə başladı.

2000-ci ilin avqustunda İİ Dövlət özəlləşdirmə Proqramı qəbul edildi. 2002-ci ildən artıq dövlət müəssisələri bazasında 1275 səhmdar cəmiyyəti yaradılmışdı. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanda özəlləşdirmə müvəffəqiyyətlə həyata keçirilirdi. 2000-ci ildə artıq ümu-

mi daxili məhsulda özəl sektorun payı 68 faiz təşkil edirdi (sənayedə 44 faiz).

Ümumiyyətlə, həyata keçirilən iqtisadi tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, sabitlik yaratmağa və tərəqqiyə yol açmağa kömək etdi. Respublika iqtisadiyyatına bütün mənbələrdən sərmayə qoyuluşu 1993-cü ildəki 29 milyard manatdan 2000-ci ildə 4,2 trilyon manata çatdı. Respublikada onlarla yeni sənaye müəssisəsi, sex, istehsalat sahəsi, qurğu işə salındı. 1993-cü ildə Bakıda çoxlaylı lövhələr istehsal edən «Peyk» zavodu, parket, plastik pəncərə fabrikləri işə düşdü. 1994-1995-ci illərdə Neftayırma zavodlarında iki yeni ELOU-AVT-2 qurğusu işə salındı, mövcud ELOU-AVT-6 qurğusu modernləşdirildi və müasir avadanlıqla təchiz olundu. Qaz emalı zavodu yenidən quruldu.

Maşınqayırma sənayesi müəssisələri xarici bazar olmadığı üçün profilini dəyişib respublika sənayesi və kənd təsərrüfatı üçün avandanlıq, texnika, ehtiyat hissələri istehsal etməyə başladılar. Müasir qazma baltası, qazma qıfılı, kultivator, toxumsəpən, kotan, nasos, reduktor, hidrodomkrat, çuqunsiyirmə istehsalı mənimsənildi. Mingəçevir yol maşınları təmiri zavodunda dəyirmanlar, xəmiryoğuran avadanlıq, şum mexanizmləri istehsalına başlandı.

1996-cı ildə Bakıda Qoz-fındıq emalı, Yağ, «Coca-Cola» sərinləşdirici içkiləri zavodları açıldı. Gəncə Aliminium oksidi zavodu, Daşkəsən Alunit mədənləri yenidən işə düşdü.

Kimya sənayesi müəssisələrində polietilen, kaustik soda, sulfat turşusu, aliminium-sulfat, xam rezin əsasında pnevmatik kabel, dərman və s. kimi məhsullar istehsalı mənimsənildi.

Yalnız 1995-1996-cı illərə qədərki dövrdə ölkədə görülmüş iqtisadi tədbirlər, keçirilən islahatlar iqtisadi istehsaldakı geriliyin aradan qaldırılmasına, iqtisadiyyatda sabit inkişafa səbəb olmuşdur. Nəticədə sənaye məhsulunun istehsalı 1995-ci ildə 1990-cı illə müqayisədə 70 faiz artmışdır.

1996-1997-ci illər respublika sənayesində sabitləşmə dövrü kimi xarakterizə olunur. Bu illərdə sənaye istehsalının inkişaf səviyyəsinin azalmasının qarşısı alınmış və əvvəlki illərlə müqayisədə 0,3 faiz artıma nail olunmuşdur. Sonrakı illərdə isə, məhsul buraxılışında artım dinamikası saxlanmış, 1996-2000-ci illərdə sənaye istehsalında artıq 5,9 faiz təşkil etmişdir.

2000-ci ildə ölkə iqtisadiyyatında müxtəlif mülkiyyət formalarına əsaslanan yeni tipli təsərrüfatların yaranması prosesi davam etmiş, kiçik sahibkarlıq sahəsində 1414 sənaye müəssisəsi fəaliyyət göstərmişdir və 1995-ci illə müqayisədə fəaliyyət göstərən kiçik müəssisələrin sayı 1,7 dəfə artmışdır.

Xarici investisiyaların cəlb edilməsi və onların qorunmasına təminat verilməsi sağlam investisiya mühitinin və bu kimi ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadiyyatda baş verən geriləmə prosesinin qarşısı alınmış və 1996-cı ildən başlayaraq, Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi başlanmışdır.

«Əsrin kontraktı»nın praktiki cəhətdən reallaşması, sənayenin sahələrinə sərmayələrin yönəldilməsi, kiçik və orta müəssisələrin özəlləşdirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi, yeni sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi sənayedə dirçəlişin təməlini

qoymuşdur. Bu illər sənayedə əsasən hasilat sənayesində və emal sənayesində irəliləyiş müşahidə olunmuşdur.

2000-ci il ərzində Azərbaycanda 1464,9 milyon dollar dəyərində 7616,1 min ton və ya əvvəlki ilə nisbətən 12,9 faiz çox neft və neft məhsulları ixrac olunmuşdur. Neft və neft məhsullarının 6,1 faizi MDB ölkələrinə, 93,9 faizi isə uzaq xarici dövlətlərə göndərilmişdir.

2000-ci ildə Azərbaycanda hasil edilən neftin ümumi həcmi 14 mln. ton təşkil etmişdir. 1990-cı ilin səviyyəsindən 12 faiz və 1995-ci ilin səviyyəsindən 1,5 dəfə çox olmuşdur.

Bundan başqa, hazırda neft emalı məhsullarının (benzin, ağ neft, dizel yanacağı, yanacaq mazutu və s.), neft-mədən avadanlığının, sementin, şiferin gil-torpağın və s. istehsalının artması müşahidə olunur. 1990-2000-ci illərdə sənaye sahəsinin inkişafına 16,9 trilyon manat investisiya sərf edilmişdir.

2001-ci ildə «Kaspian Fiş» balıq məhsulları müəssisəsi, Bakı poladtökmə zavodu, Qaz zavodunda yeni müasir emal qurğusu istifadəyə verildi.

Yeni formalaşan təsərrüfat strukturlarının nəzərə çarpacaq dərəcədə artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı qeyri-dövlət sektorunun rolunun artmasına gətirib çıxarmışdır. Belə ki, sənaye məhsulunun ümumi istehsalında qeyri-dövlət sektorunun xüsusi çəkisi 1995-ci ildəki 5,5%-dən, 1998-ci ildə 26,4%-dək, 2000-ci ildə isə 43,7%-dək artmışdır.

Respublikada məhsul istehsalının artımı əsasən elektroenergetika, yanacaq kimya, neft-kimya sənayesi müəssisələrinin, habelə qeyri-dövlət bölməsinin uğurlu işləri hesabına təmin edilmişdir. Hazırda Azərbaycanda sənaye sahəsində 37 dövləti təmsil edən 381 xarici investisiyalı müəssisə fəaliyyət göstərir. 1994-cü ildən başlayaraq, 2000-ci ilin sonunadək 12,2 mln. ton xam neft və 1,8 mlrd. kubmetr qaz hasil edilmişdir.

Makroiqtisadi göstəricilərin sabitləşməsi, tənəzzülün cilovlanması, artım meyllərinin intensivləşməsi, etibarlı tərəfdaş kimi respublikanın beynəlxalq imicinin yüksəlməsi, xarici iqtisadi əlaqələrin, investisiya qoyuluşunun genişlənməsi, struktur və instisiyon dəyişikliklərə istiqamətlənmiş islahatların dərinləşməsi iqtisadi inkişafın dönmədən sürətlənməsinə şərait yaradırdı.

2005-ci ilin yanvar-oktyabr aylarında ölkə sənayesində 35,4 trilyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 30 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İlin əvvəlindən ötən on ay ərzində 17,7 trilyon ton neft və 4,6 milyard kubmetr qaz hasil edilmiş və ötən illə eyni müqayisədə müvafiq olaraq 37,7 faiz və 10,7 faiz artmışdır.

Neft-qaz sektoru ilə yanaşı, qeyri-neft bölməsində də nəzərə çarpacaq irəliləyişlər əldə olunmuşdur. Neftin hasilatı və emalı sahələri istisna olmaqla, yəni sənayenin qeyri-neft sektorunda 16,2 faizlik artım qeydə alınmışdır. Toxuculuq və tikiş sənayesi, nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı, metallurgiya sənayesi və s. sahələrdə artım daha yüksək olmuşdur.

Sənaye istehsalının 94,2 faizi malların, 5,8 faizi isə xidmətlərin payına düşür. Ümumi istehsalın üçdə ikisini təmin edən qeyri-dövlət müəssisələrində istehsal 48 faizədək yüksəlmişdir. Cari ilin yanvar-

sentyabr aylarında sənaye müəssisələrində siyahı tərкibində olan işçilərin sayı əvvəlкi ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 155,5 min nəfərə, qeyri-dövlət seкtorunda isə 15,2 faiz artaraq 51,8 min nəfərə çatmışdır.

Muzdla işləyənlərin orta aylıq nominal əməк haqqı 1 milyon 28 min manat olmuş və əvvəlкi ilin yanvar-sentyabr aylarına nisbətən 11,5 faiz artmışdır. Neft seкtorunda işləyən Azərbaycan vətəndaşlarının orta aylıq nominal əməк haqqı da əhəmiyyətli dərəcədə artaraq 1,3 milyon manat olmuş və əvvəlкi ilin yanvar-sentyabr ayları ilə müqayisədə 32,8 faiz artmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan: statistiк göstəriciləri. 2002. Baкı, 2002.
2. «Audit» jurnalı.
3. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Baкı, Azərbaycan, 1994.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İ-VİI кitablar. Baкı, 1997-1998.
5. Əliyev İ., Muradəliyev A. Heydər Əliyev: Azərbaycan nefti dünya siyasətində. V кitab, Baкı, 1997.
6. Əliyev İ. Heydər Əliyev və Azərbaycan кənd təsərrüfatı. İİ hissə, Baкı, 2001.
7. Əliyev N.A., Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inкişafı. Baкı, Azərbaycan, 1997.
8. Əsrin müqaviləsi. Baкı, Azərbaycan, 1996.
9. Səfərov S.İ. Yeni Azərbaycan: iqtisadiyyat, siyasət, dinamizm. Baкı, Azərbaycan, 2003.
10. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatı XX əsrdə: inкişaf mənbələri, problemlər, XXİ əsrin birinci onilliyində iqtisadi inкişaf кonsepsiyası haqqında düşüncələr. Baкı, 1997.


## НЕФТЯНОЙ ФАКТОР И ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ


**И.Х.ЗЕЙНАЛОВ**


## РЕЗЮМЕ


В научной статье исследуется актуальность темы, роль нефтяного фактора в улучшении экономического и социального положения населения страны, его влияние на экономическое развитие Азербайджана и на успехи во внешней политике.

В том числе раскрывается роль, разработанного Гейдаром Алиевым, «Контракт Века» в решении насущных задач для еще большего укрепления Азербайджанской государственности.

В статье изучается также роль нефтяного фактора в определении политики экономического развития, в проведении жизнь аграрных реформ, в формировании новых форм собственности в городе и селе, а также в ликвидации проблем, проявляющихся в ходе создаваемой экономической ситуации.

## THE FACTOR OF PETROLEUM AND ECONOMİC DEVELOPMENT İN AN İNDEPENDENT AZERBAİJAN

**İ.X.ZEYNALOV**

### SUMMARY

İn this scintific article was investigated the urgency of subject, the role of petroleum factor in improving the social and economic condition of country people, its influence to the economic development and foreign policy of Azerbaijan as well.

There was also commented the project of «The Contract of Century» worкed out by H.Aliyev and the duties which must be carried out for the strengthening of Azerbaijan state as well.

İn the article there has been investigated the role of petroleum factor in the economic development, the problems which we can face in carrying out the agrarian reforms, the creation of new property forms in the villages or cities of Azerbaijan.